AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

# FİLOLOGİYA MƏSƏLƏLƏRİ

## № 5

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

**«Elm və təhsil»**
**Bakı – 2023**

**REDAKSİYA HEYƏTİ**: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №5

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

# HEYDƏR ƏLİYEV – 100

**ƏDİBƏ İSMAYILOVA**
**Azərbaycan Milli Kitabxanasının Elmi işlər və Kitabxana-informasiya xidməti üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru**
aismayilova@anl.az

## AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞUNUN HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

**Xülasə**

Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mədəniyyətə, kitaba, kitabxanaya və mütaliəyə münasibəti əks olunmuşdur. Heydər Əliyevin bir neçə dəfə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına gəlişi, kitabxana haqqında söylədiyi fikirlər, öz şəxsi kitabxanasından Milli Kitabxanaya qiymətli kitab kolleksiyası hədiyyə etməsi xüsusi vurğulanmışdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin birinci dövründə Azərbaycanda kitabxana quruculuğunun inkişafına təkan verən səmərəli fəaliyyəti ilə mədəniyyət tariximizdə yeni bir inkişaf mərhələsi yaratmışdır ki, burada rayon və şəhərlərdə kitabxana binalarının tikilməsi, mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması və bitkin kitabxanalar şəbəkəsinin formalaşması istiqamətində atılan addımlar öz əksini tapmışdır.

Məqalədə həmçinin Ulu Öndərin Azərbaycana rəhbərliyinin ikinci dövründə Müstəqil Azərbaycanda kitabxana quruculuğunun əsasını təşkil edən normativ hüquqi bazanın formalaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun işlənib hazırlanması barədə göstərişindən, həmin qanunun icrası ilə əlaqədar verdiyi tarixi Fərmandan bəhs olunur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyini bərpasının ilk illərində kitabxana quruculuğu sahəsində təməlini qoyduğu yeni ənənələrdən və bu ənənələrin onun siyasətinin fəal davamçısı olan hörmətli cənab Prezidentimiz İlham Əliyev təfəfindən böyük uğurla davam etdirilməsindən geniş bəhs olunur. Mədəniyyət sahəsində Ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Kitabxanaya və orada oxucular üçün yaradılan şəraitin yaxşılaşdırılmasına diqqət və qayğısı öz əksini tapır.

***Açar sözlər: Ulu Öndər, Milli Kitabxana, şəxsi kolleksiya, Heydər Əliyev guşəsi, Avropa Milli Kitabxanaları Konfransı təşkilatı,"Nadir kitablar" kolleksiyası***

Xalqımızın bəşər tarixinə bəxş etdiyi ümummilli lider Heydər Əliyev müasir dünya tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi olmuşdur. İllər ötsə də, onun Azərbaycan xalqının inkişafı istiqamətində göstərdiyi dahiyanə xidmətlər heç vaxt unudulmayacaq, öz əhəmiyyətini və dəyərini itirməyəcək, hər zaman böyük minnətdarlıq hissi ilə xatırlanacaqdır. Azərbaycan xalqının öz müstəqilliyini bərpa etməyə çalışdığı ilk illərdə Tanrı Ulu Öndəri xilaskar, xalqının taleyini həll edəcək, ona doğru yol göstərəcək, onu zülmət içərisindən çıxarıb işıqlı gələcəyə doğru istiqamətləndirəcək bir qüvvə kimi köməyə göndərdi. Bu xilaskarlıq missiyasının dəyəri, əhəmiyyəti və əvəzolunmazlığı isə zaman keçdikcə daha artıq, daha dərin mahiyyət qazanır. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin həm birinci, həm də ikinci dövründə ölkəmizi və xalqımızı çox böyük sınaqlardan uğurla çıxara bildi. Müstəqilliyimizin bərpasından sonra xalqımızın tələbi ilə onun ikinci dəfə ölkəmizə rəhbərlik etməyə başladığı illərdə ilk addımlarını atan müstəqil Azərbaycan məhz Ulu Öndərin sayəsində bir çox böyük fəlakətlərdən, vətəndaş müharibəsindən, hətta parçalanmaq və dünya xəritəsindən silinmək təhlükəsindən xilas edildi. Məhz buna görə də qədirbilən Azərbaycan xalqı və gələcək nəsillər Ulu Öndərin bu xidmətlərini heç vaxt unutmayacaq.

Heydər Əliyevin dahi bir şəxsiyyət kimi Azərbaycan tarixində oynadığı rol təkcə ictimai-siyasi əhəmiyyət daşımır. Onun hakimiyyəti illərində milli-mənəvi dəyərlərimizin mühafizəsi və təbliği, mədəniyyətimizin inkişafı və dünya səviyyəsində tanıdılması, həmçinin bu sahədə çalışan mütəxəssislərin fəaliyyətinin və istedadının dəyərləndirilməsi istiqamətində də böyük işlər görülmüşdür. Məhz onun qayğısı və diqqəti sayəsində mədəniyyətin qorunması, zənginləşməsi və inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra – 1993-cü ildə xalqımızın tələbi ilə ikinci dəfə ölkəyə rəhbərlik etməyə başlamış Ümummilli Lider çox çətin olan o illərdə ölkəmizin siyasi, iqtisadi və sosial problemlərin cəngində boğulmasına baxmayaraq, çətinlikləri aradan qaldırmaqla bərabər, quruculuq fəaliyyətini də uğurla davam etdirməyə nail olmuşdur. Mədəniyyətimizin, milli mənəvi dəyərlərimizin, həmçinin hələ 1970-1980-ci illərdə özünün qurub-yaratdığı mədəniyyət müəssisələri şəbəkəsinin yenidən inkişafına dəstək olmuşdur. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin ikinci dövründə – 1995-1997-ci illərdə 4 dəfə Milli Kitabxanada olmuş və müxtəlif tədbirlərdə iştirak etmişdir. Bu tədbirlərdə şəxsən iştirak etməklə, kitaba, kitabın qorunduğu ocağa, həm də təqdimatı keçirilən əsərə və müəllifə hörməti, sayğını ifadə etmiş olurdu. İndiyə kimi mövcud olan tarixi sənədlərdə və dünyanın ən görkəmli şəxsiyyətlərinin çıxışlarında, elm, mədəniyyət və dövlət xadimlərinin məşhur deyimlərində kitabxana haqqında çox dəyərli fikirlərin söyləndiyi məlumdur. Lakin bu kəlamlar içərisində Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin kitab və kitabxana haqqında söylədiyi *"Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka*

*mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir!"* fikirləri öz elmi əsaslılığı, dərin məzmunu və bədii yükü baxımından çox yüksəkdə dayanır. Zənnimizcə, əbədiyaşar mənəvi sərvətlərin, xalqların tarixi yaddaşlarının nəsillərdən-nəsillərə daşıyıcısı olan kitabxanalar haqqında bundan gözəl, bundan mənalı bir fikir söyləmək, çətin ki, mümkün olsun! Kitabxananın mənəviyyat mənbəyi, müqəddəs bir məkan, elmə, biliyə, zəkaya yetişmək üçün hamının üz tuta biləcəyi ocaq – elm, bilik, zəka ocağı kimi dəyərləndirilməsi yalnız dahiyanə düşüncə tərzinə malik böyük şəxsiyyətlərə məxsusdur! Yalnız xalqının taleyüklü məsələlərinə böyük hörmətlə yanaşan, onun işıqlı gələcəyini düşünən və bu yolda canını fəda etməyə hazır olan bir şəxsiyyət kitabxanaları xalqın mədəni səviyyəsini nümayiş etdirən müqəddəs məkan kimi qiymətləndirə bilərdi! Xalqımızın böyük oğlu Heydər Əliyevin kitaba və kitabxanaya verdiyi dəyərin əsas göstəricilərindən biri də onun müstəqillik illərində Milli Kitabxanaya ilk səfəri zamanı öz şəxsi kitabxanasından seçilmiş 300 nüsxə qiymətli kitab kolleksiyasını kitabxanaya hədiyyə etməsi idi. Respublika "Kitab" Cəmiyyətinin təşkil etdiyi miniatür kitab kolleksiyasından ibarət sərgi zamanı Heydər Əliyev yalnız tədbirə gəlişi, çıxışı ilə deyil, dəyərli kitab kolleksiyası hədiyyə etməsi ilə də həm sadə insanlara, həm də cəmiyyətin müxtəlif üzvlərinə mesaj vermiş, nümunə göstərmiş oldu. O, həmin tədbir zamanı demişdir: *"Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutacaqdır. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitablar bağışlayacaqlar".*

Ulu Öndərin Milli Kitabxanaya bağışladığı hədiyyələr arasında özü üçün də çox dəyərli olan "Qurani-Kərim" də var idi. O, diqqətləri bu kitaba yönəldərək demişdir: *"Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz islam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – islam dininin mərkəzi olan Məkkədə mənə "Quran"ın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm".*

Heydər Əliyev "Quran"ı Dövlət Kitabxanasına təqdim etməklə, bu məkana nə dərəcədə böyük əhəmiyyət verdiyini ictimaiyyət nümayəndələrinin diqqətinə çatdırmış oldu. Digər tərəfdən isə böyük şəxsiyyət bu kitabxananı elm və mənəviyyat məbədi hesab edirdi. Mənəviyyatımızın və inancımızın istinad nöqtəsi olan "Qurani-Kərim"in Ulu Öndər tərəfindən məhz elm məbədinə hədiyyə olunması böyük mənəvi və ictimai əhəmiyyət kəsb edirdi, böyük məna daşıyan bir addım idi. Çünki Heydər Əliyev kitabxananı ilahi qüvvəyə malik, toxunulmaz, pak, təmiz bir məkan hesab edirdi. Bu gün Milli Kitabxana dahi şəxsiyyətin bağışladığı "Qurani-Kərim"i Ulu

Öndərin xatirəsinə hörmət əlaməti olaraq kitabxananın foyesində təşkil olunan "Heydər Əliyev guşəsi"ndə nümayiş etdirir.

Dünya kitabxanalarının tarixində ayrı-ayrı alimlər, ziyalılar, görkəmli şəxsiyyətlər, hökumət və dövlət başçıları tərəfindən kitabxanalara kitab hədiyyə etmək ənənəsi həmişə olmuş və bu, mədəniyyətin, elmin inkişafına dəstək kimi qiymətləndirilmişdir. Ancaq Ulu öndər Heydər Əliyev tərəfindən bu ümumbəşəri ənənənin bizim zəmanəmizdə davam etdirilməsi onun çox böyük uğurla vüsət almasına yol açdı və bu böyük şəxsiyyətin çağırışına qoşulan neçə-neçə görkəmli yazıçı, ziyalı, alim və sənətkar Milli Kitabxanaya öz şəxsi kitabxanalarından qiymətli kitablar bağışladılar. Həmin proses bu gün də böyük uğurla davam etdirilməkdədir.

İlk olaraq, Ulu Öndərin bu çağırışına qoşulan və öz şəxsi kitabxanasından Dövlət Kitabxanasına kitab bağışlayan akademik Budaq Budaqov oldu. Bundan sonra Xalq yazıçısı Elçin Əfəndiyev, akademik Ziya Bünyadov, professor Cavad Heyət, professor Ədalət Vəliyev və digər ziyalılarımız da öz şəxsi kitabxanalarından dəyərli nümunələri kitabxanaya ərməğan etdilər.

Milli Kitabxana böyük şəxsiyyət Heydər Əliyevin bu kolleksiyasını kitaba və kitabxanaya verilən böyük dəyərin əyani nümunəsi kimi oxucular, xüsusilə gənclər, tələbələr və məktəblilər arasında geniş təbliğ edir. İndiyədək bu kolleksiya Ulu Öndərin doğum və anım günlərində, Milli Dirçəliş Günündə və Milli Qurtuluş Günündə Bakıda, eləcə də respublikamızın bölgələrində, akademiyada, universitetlərdə, liseylərdə, ümumtəhsil məktəblərində gənclər, tələbələr və şagirdlər qarşısında dəfələrlə nümayiş etdirilmişdir. Ulu Öndərin Milli Kitabxanada mühafizə olunan kolleksiyası Bakı Dövlət Universitetində, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında, Dövlət Gömrük Komitəsinin Gömrük Akademiyasında, Akademik Zərifə Əliyeva adına Liseydə, Quba rayonundakı Gənclər Mərkəzində, Xaçmazdakı Mədəniyyət Mərkəzində, Tərtərdəki Gənclər Mərkəzində, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki Pedaqoji Kollecdə və digər mədəniyyət ocaqlarında gənclər qarşısında böyük uğurla təqdim olunmuşdur.

İllər keçsə də bu dəyərli kolleksiyadakı kitablarla tanış olan nəsillər, sözün əsl mənasında, böyük mütaliəçi və dahi şəxsiyyət Ulu öndər Heydər Əliyevdən kitabla dost olmaq nümunəsini həvəslə öyrənəcək, onun dahi şəxsiyyət kimi formalaşmasında kitabların, mütaliənin böyük rolunu aydın dərk edəcəklər.

Ulu öndər Heydər Əliyevin müstəqillik illərində Milli Kitabxanaya ilk səfəri qədirbilən xalqımızın yaddaşında əsrlər boyu ona görə yaşayacaqdır ki, onun bu səfər zamanı söylədiyi fikirlər bugünkü kimi sabah da aktual olacaq. Ümummilli lider Heydər Əliyev Milli Kitabxanaya bu tarixi səfəri zamanı Dövlət Kitabxanasında (Milli Kitabxanada) çalışan insanları, onların əməyini də çox yüksək qiymətləndirmiş, kitabxanaçıları "fədakar insanlar" adlandırmışdır. Bir neçə aspektdən yanaşdıqda çox böyük tarixi əhəmiyyət daşıyan bu ilk səfərdə Ulu Öndər M.F.Axundov adına Dövlət Kitabxanasından (Milli Kitabxanadan) danışarkən demişdir: *"Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün*

*kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Bu kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".*

Yalnız kitabı, mütaliəni, kitabxananı ürəkdən sevən, onlardan kifayət qədər uğurla bəhrələnən və nəhayət, sadə peşə adamlarının fədakar əməyinə yüksək qiymət verən böyük şəxsiyyət belə fikirlər söyləyə, kitabxanaçıların əməyini qiymətləndirə bilərdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti qarşısında ən böyük xidmətlərindən biri də ömrünün son günlərində özü qədər inandığı və etibar etdiyi, Azərbaycanı işıqlı gələcəyə aparmağa qadir olan yeganə şəxsiyyəti – dahi Heydər Əliyevin həyat, siyasət və rəhbərlik məktəbini keçmiş, yeganə davamçısı kimi gördüyü oğlu İlham Əliyevi növbəti prezident seçkilərində doğma xalqına tövsiyə etməsi olmuşdur. Heydər Əliyevin "həyat məktəbi"ni uğurla keçmiş cənab İlham Əliyev öz atası, dahi siyasətçi Heydər Əliyevin tövsiyəsi ilə xalqın böyük əksəriyyətinin səsverməsi nəticəsində ölkə Prezidenti seçildikdən sonra çox qısa zaman kəsiyində bütün xalqın Prezidenti olacağına hamını inandırmağı bacardı və sübut edə bildi ki, dahi Heydər Əliyevin siyasi və dövlətçilik kursu müvəffəqiyyətlə davam etdirilir. Digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də Ulu Öndərin kursunu böyük uğurla davam etdirən cənab Prezidentimizin həyata keçirdiyi səmərəli tədbirlər sırasında ölkəmizin aparıcı mədəniyyət ocaqlarının binalarının əsaslı şəkildə yenidən qurulması və onların müasir tipli avadanlıqlarla təchiz olunması həyata keçirildi. Bu sırada Azərbaycanın əsas elm və mədəniyyət məbədi hesab olunan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası da var idi. 2003-cü ilin dekabrında Dövlət Kitabxanasının binasında əsaslı yenidənqurma işləri başa çatdırıldıqdan dərhal sonra bu elm məbədinə 2004-cü ildə Azərbaycan Respublikasının Prezidentinin göstərişi əsasında Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə 1998-ci ildə Ulu öndər Heydər Əliyevin imzaladığı "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, "Milli kitabxana" statusu verildi. Dövlət Kitabxanasına Milli Kitabxana statusunun verilməsi bu elm və mənəviyyat məbədinin fəaliyyətinin daha da genişləndirilməsinə, statusunun və yerinə yetirdiyi missiyanın təkmilləşdirilməsinə güclü təkan vermiş oldu. Bundan sonra Milli Kitabxananın beynəlxalq əlaqələri əhəmiyyətli dərəcədə genişləndi və beynəlxalq professional kitabxana təşkilatlarında uğurla təmsil olunmağa başladı. Tezliklə Azərbaycan Milli Kitabxanası Müstəqil Dövlətlər Birliyinin milli kitabxanalarını özündə birləşdirən Avrasiya Kitabxanalar Assambleyasının (BAE) beş təsisçisindən biri kimi çıxış edərək bu gün də keçmiş Sovetlər Birliyinin əhatə miqyasında yeganə olan professional kitabxana təşkilatının yaradıcılarından oldu. 2005-ci ildə Azərbaycan Milli Kitabxanası dünyada çox nüfuzlu kitabxana təşkilatı olan Avropa Milli Kitabxanaları Konfransı (CENL) təşkilatına üzvlüyə qəbul olundu. Bu nüfuzlu təşkilatın Lüksemburqda keçirilən illik iclasında ilk dəfə Azərbaycan Milli Kitabxanası təmsil edildi və 43 ölkənin yekdil qərarı ilə həmin təşkilatın üzvlüyünə

qəbul olundu. 2009-cu ilin avqustunda Azərbaycan Milli Kitabxanası ən nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan Beynəlxalq Kitabxana Təşkilatları və Assosiasiyaları Federasiyasına üzvlüyə qəbul edildi və ilk dəfə həmin ilin avqustunda İFLA-nın Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində keçirilən illik iclasında iştirak etdi. Bu zaman İFLA-nın prezidenti tərəfindən Azərbaycan Milli Kitabxanasına İFLA-nın üzvlüyü sertifikatı təqdim edildi.

Ölkədə mədəniyyət və təhsilin inkişafı istiqamətində həyata keçiriləcək tədbirlər kontekstində qarşıda duran əsas vəzifələrdən ən vacibi hələ ötən əsrin 90-cı illərinin sonunda müdrik şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş Müstəqil Azərbaycanın yeni Konstitusiyasından və həmin konstitusiyaya müvafiq olaraq ölkə ərazisində fəaliyyət göstərən təhsil və mədəniyyət müəssisələrində tədrisin və bütün işlərin, yazışmaların yeni latın qrafikalı Azərbaycan əlifbası ilə aparılmasına tam keçilməsi ilə əlaqədar qərardan irəli gələn vəzifələrin icrasından ibarət idi.

Heç təsadüfi deyildir ki, Azərbaycan Prezidenti seçildikdən dərhal sonra Heydər Əliyevin uzaqgörənliklə qəbul etdiyi mühüm qərarları uğurla yerinə yetirməyə başlayan cənab Prezident İlham Əliyevin bu sahədə atdığı ilk addımlardan biri də ölkə ərazisindəki latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunmuş kitabların, dərslik və dərs vəsaitlərinin, demək olar ki, heç olmaması probleminin təxirəsalınmadan aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi olmuşdur. Bu yöndə 2004-cü ildə hörmətli cənab Prezidentin 3 mühüm sərəncam imzalaması də həmin məsələnin çox vacib və təxirəsalınmaz olması ilə əlaqədar idi.

Mədəniyyət sahəsində Ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Kitabxanaya və orada oxucular üçün yaradılan şəraitin yaxşılaşdırılmasına diqqət və qayğısını Azərbaycana rəhbərliyinin ilk illərində Milli Kitabxanaya ayrılan büdcə vəsaitinin xeyli artırılması ilə də əlaqələndirmək olar. Belə ki, Cənab Prezidentin tapşırığı əsasında 2006-cı ilin noyabrında Milli Məclisə tövsiyə olunan 2007-ci ilin Dövlət büdcəsi haqqında Qanun layihəsində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının xərcləri Dövlət büdcəsinin icmal layihəsində ayrıca maddədə nəzərdə tutuldu və bir neçə dəfə artımla göstərildi.

Azərbaycana rəhbərliyinin ilk illərindən başlayaraq, cənab Prezident İlham Əliyev Milli Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, oxucular üçün lazımi şəraitin yaradılması, kitabxananın müasir tipli kompüter texnologiyaları və avadanlıqlarla təchiz olunması və kitab fondlarının daima yenilənməsi məqsədilə lazımi vəsaitlərin ayrılmasına böyük diqqətlə yanaşdı. Bu diqqətin bariz nümunəsini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan daha aydın görmək olar. Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin inkişafında və yenidən qurulmasında mühüm mərhələ təşkil edən bu Proqram sənədi

bütövlükdə ölkəmizdə kitabxanaların, o cümlədən Milli Kitabxananın fəaliyyətinin günün tələbləri səviyyəsində təşkil olunmasında, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasında, oxuculara kitabxana-biblioqrafiya xidmətlərinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Bu mühüm Proqram sənədində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına ayrıca müstəqil bölmənin ayrılması da bu kitabxanaya dövlət başçısının qayğısından irəli gəlirdi. Çünki bu Dövlət Proqramının uğurla yerinə yetirilməsi Azərbaycan Milli Kitabxanasının aparıcı dünya ölkələrinin milli kitabxanaları sırasında öncül yerlərdən birinə çıxmasına və Cənubi Qafqazın ən modern kitabxanası səviyyəsinə yüksəlməsinə səbəb olmuşdur. Bu fikri 2013-cü ildə Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi tədbirlərində və bu münasibətlə Bakıda keçirilən Avropa Milli Kitabxanaları Konfransı təşkilatının (CENL) növbəti 27-ci illik toplantısında iştirak etmək üçün paytaxtımıza gələn həmin təşkilatın prezidenti, Fransa Milli Kitabxanasının direktoru Bruno Rassini söyləmişdir.

2008-ci ildə Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyi günlərində hörmətli cənab Prezidentin Milli Kitabxananın kollektivinə və Bakıda keçirilən Avrasiya Kitabxanalar Assambleyasının illik toplantısının iştirakçılarına təbrik məktubu göndərərək onları  və kollektivin bütün üzvlərini yubiley münasibətilə təbrik etməsini də bu diqqətin yüksək nümunəsi hesab etmək olar.

2008-ci il noyabr ayının 17-də Azərbaycan Respublikası Prezidenti "M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında" müvafiq sərəncam imzalamışdır. Həmin sərəncamla Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Milli Kitabxanasının direktoruna və 5 nəfər əməkdaşına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir. Eyni zamanda digər bir sərəncamla Milli Kitabxananın 4 nəfər əməkdaşı Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

2013-cü ildə Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi kitabxananın tarixində ilk dəfə dövlət səviyyəsində keçirilmişdir. Belə ki, yubiley tədbirləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 24 iyun 2013-cü il tarixli Sərəncamına müvafiq olaraq dövlət səviyyəsində geniş şəkildə qeyd olunmuşdur. Milli Kitabxananın 90 illik yubiley tədbirləri çərçivəsində Bakı şəhərində Avropa Milli Kitabxanaları Konfransı beynəlxalq təşkilatının (CENL) 27-ci illik iclası, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) 16-cı illik toplantısı, Türkdilli Ölkələrin Milli Kitabxanaları Şurasının 2-ci iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Ölkələrin Milli Kitabxana və arxiv təşkilatları Birliyinin 2-ci toplantısı keçirilmişdir.

"Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Əməkdar Mədəniyyət İşçisi" fəxri adının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 sentyabr tarixli Sərəncamı ilə Azərbaycanda kitabxana işinin

inkişafında xidmətlərinə görə Azərbaycan Milli Kitabxanasının 7 əməkdaşına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verildi. Həmin gündə cənab Prezidentin imzaladığı "Azərbaycan Milli Kitabxanası əməkdaşlarının təltif edilməsi haqqında" digər sərəncamla ölkəmizdə kitabxana işinin inkişafında xidmətlərinə görə Milli Kitabxananın direktoruna 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Milli Kitabxananın 6 nəfər əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olundu. Biz bütün bunları Azərbaycan Milli Kitabxanasının və onun əməkdaşlarının fədakar əməyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilən yüksək qiymətin bariz nümunəsi hesab edirik.

Ulu öndər Heydər Əliyevin XX əsrin 90-cı illərinin sonlarında Azərbaycan Milli Kitabxanasına səfərləri zamanı əsasını qoyduğu ənənələrin XXI əsrin əvvəllərində onun siyasi və iqtisadi kursunu böyük uğurla davam etdirən hörmətli cənab Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində Milli Kitabxanamız öz inkişafının ən yüksək mərhələsinə qalxmış, Azərbaycan mədəniyyətinə dəyərli töhfələr verərək dünya milli kitabxanaları sırasında ön cərgədə qərarlaşmışdır. Milli mənəvi dəyərlərimizin mühafizəsi və təbliği istiqamətində Milli Kitabxananın həyata keçirdiyi uğurlu layihələr və əldə etdiyi nəticələr xüsusilə qürurvericidir.

İlk növbədə, Azərbaycan kitabının retrospektiv repertuarının yaradılması sahəsində – ötən əsrin 80–90-cı illərində Azərbaycan Dövlət Kitab Palatasının ləğv olunması ilə əlaqədar yarımçıq qalmış bu işin yüksək səviyyədə davam etdirilməsi sayəsində "Yeni kitablar" informasiya bülleteninin, "Birillik Azərbaycan Kitabiyyatı"nın və nəhayət, "Azərbaycan kitabı" adlı 10 cildlik retrospektiv fundamental biblioqrafiyanın 5 cildinin nəşr olunaraq mütəxəssislərə təqdim olunması layihəsini xüsusilə qeyd etmək lazımdır.

Klassik və müasir Azərbaycan ədəbiyyatının, elminin və mədəniyyətinin görkəmli xadimlərinin ölkəmizin, eləcə də dünyanın zəngin kitabxanalarında mühafizə olunan ədəbi, elmi və mədəni irsinin araşdırılması, toplanması və fundamental biblioqrafiyalar şəklində "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunması layihəsinin uğurla icrası böyük əhəmiyyət kəsb edir, ədəbiyyatımızın, elmimizin və mədəniyyətimizin nailiyyətlərinin nümayişi baxımından da çox dəyərlidir. 2006-cı ildən bu günədək həmin layihə əsasında 100-ə qədər fundamental biblioqrafiya nəşr olunmuşdur ki, bunlardan görkəmli Azərbaycan ədibləri Nizami Gəncəviyə, Məhəmməd Füzuliyə, İmadəddin Nəsimiyə, Mirzə Ələkbər Sabirə, Cəlil Məmmədquluzadəyə, Hüseyn Cavidə, Mirzə Fətəli Axundzadəyə, Səməd Vurğuna, Bəxtiyar Vahabzadəyə, Yusif Vəzir Çəmənzəminliyə, tanınmış bəstəkarlarımız Üzeyir Hacıbəyliyə, Qara Qarayevə, Fikrət Əmirova, Cahangir Cahangirova, maestro Niyaziyə, Ulu öndər Heydər Əliyevə, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevaya, elm və mədəniyyət xadimlərimiz Mir Cəlal Paşayevə, Aida İmanquliyevaya, akademiklər Mirzə İbrahimova, Arif Paşayevə, İsa Həbibbəyliyə, Nizami Cəfərova və digərlərinə həsr

olunmuş biblioqrafiyaları qeyd etmək olar. Milli Kitabxananın son illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin iştirakıyla həyata keçirdiyi “Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı” layihəsi çərçivəsində gördüyü işlər xüsusilə diqqətəlayiqdir. Bu layihənin əsas məqsədi dünyanın ən zəngin kitabxanalarında və muzeylərində saxlanılan klassik şairlərimizin əlyazmalarının müəyyən olunması və onların digital (elektron) nüsxələrinin ölkəmizə gətirilərək Azərbaycan Milli Kitabxanasının Elektron bazasına, həmçinin 1 nüsxədə çap olunaraq kitabxanamızın “Nadir kitablar” kolleksiyasına daxil edilməsindən ibarətdir.

Bu gün Azərbaycan Milli Kitabxanası beynəlxalq əlaqələrini genişləndirərək 80-dən artıq ölkənin milli və universitet kitabxanası ilə qarşılıqlı əlaqələr qurmuş və onlarla beynəlxalq kitab mübadiləsi həyata keçirir. Qarşılıqlı memorandumlar əsasında dünya kitabxanalarının və muzeylərinin kataloqları və nadir kitab fondları tədqiq olunarkən bu kitabxanalarda klassik Azərbaycan şairlərindən Xaqani Şirvaninin, Müciréddin Beyləqaninin, Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Məhəmməd Füzulinin, Şah İsmayıl Xətainin və digərlərinin qiymətli əlyazmalarının mühafizə olunduğu aşkar edilmişdir. Həmin kitabxana və muzeylərin rəhbərləri ilə aparılmış danışıqlar nəticəsində “Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı” layihəsi çərçivəsində görkəmli şəxsiyyətlərimizin 200-dən artıq əlyazmasının digital (elektron) nüsxələrinin Azərbaycana gətirilməsinə nail olunmuşdur. Bu gün onların içərisindən 50 ədəd yazılma tarixi və bədii tərtibat baxımından ən nadir qiymətliləri seçilərək 1 nüsxə nəfis şəkildə çap edilərək Milli Kitabxananın “Nadir kitablar və kitabxana muzeyi” şöbəsinin kolleksiyasının tərkibinə daxil olunmuş və tədqiqatçıların istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə böyük Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan olunması ilə əlaqədar təkcə 2021-ci ildə Milli Kitabxana tərəfindən dahi şairimizin dünyanın ən zəngin kitab fondlarına malik olan kitabxana və muzeylərində mühafizə edilən 150 qiymətli əlyazmasının elektron nüsxəsinin Azərbaycana gətirilərək Milli Kitabxananın Elektron bazasına daxil edilməsi təmin olunmuşdur. Eyni zamanda bu günədək Nizami Gəncəvi ilə yanaşı, İmadəddin Nəsiminin 10-dan artıq nadir əlyazmasının, Xaqani Şirvaninin, Mücirəddin Beyləqaninin, Şah İsmayıl Xətainin, Nəsirəddin Tusinin, Müznibin və digər kiassiklərimizin dünya kitabxanalarında mühafizə olunan əlyazmalarının çoxlu sayda elektron nüsxələri də əldə olunaraq Azərbaycana gətirilmiş və Milli Kitabxananın Elektron bazasına daxil edilmişdir. Bu istiqamətdə işlərimizi bu gün də uğurla davam etdiririk.

Milli Kitabxanada həyata keçirilən “Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının qızıl fondundan)” layihəsi çərçivəsində ötən əsrin 50-70-ci illərində çap edilmiş Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət not məcmuələrinin 100-dən çoxu artıq yenidən çap olunaraq yerlərdəki kitabxanalara,

musiqi və incəsənət məktəblərinə göndərilmişdir. Bütün bunları Ulu öndər Heydər Əliyevin XX əsrin 70-90-cı illərində Azərbaycan Milli Kitabxanasına göstərdiyi diqqət və qayğının, onun mədəniyyət sahəsindəki ənənələrini uğurla davam etdirən və ən böyük vəsiyyətini yerinə yetirərək müqəddəs torpaqlarımızın düşmən tapdağından azad olunmasını təmin edən hörmətli cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin son 20 il ərzində Azərbaycan Milli Kitabxanasına, onun fəaliyyətinə verdiyi yüksək dəyərin, kitabxananın kollektivinə göstərdiyi qayğının və etimadın bariz nəticəsi hesab etmək olar.

Milli Kitabxana və onun kollektivi mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə, kitaba, kitabxanaya böyük dəyər verən mərhum Prezidentimiz Heydər Əliyevin xatirəsini böyük qədirbilənlik hissi ilə xatırlayır və həmişə də xatırlayacaqdır

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Xələfov, A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi / A.Xələfov. – Bakı, – 2006. – 312 s.
2. Tahirov, K.M. Heydər Əliyev və Milli Kitabxana/ K.Tahirov.–Bakı, –2022. – 180s.
3. Tahirov, K.M. Milli Kitabxananın inkişafının Heydər Əliyev mərhələsi//Xalq qəzeti. – 2013, – 9 may.- S. 6.
4. Tahirov, K.M. Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi//Kitabşünaslıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal,–2016.-№2(3), - S.41-45.

**Adiba Ismayilova**

### Heydar Aliyev stage of library establishment in Azerbaijan

### Summary

The attitude of Heydar Aliyev, the national leader of the Azerbaijani people, to culture, books, libraries and reading is reflected in the article. Heydar Aliyev's visit to the National Library of Azerbaijan named after M.F. Akhundov several times, his opinions about the library, and his gift of a valuable collection of books from his personal library to the National Library were specially emphasized. The Great Leader created a new stage of development in our cultural history with his effective activity that spurred the development of library construction in Azerbaijan in the first stage of his administration to Azerbaijan, where the steps taken towards the construction of library buildings in districts and cities, the creation of centralized library systems and the formation of a network of exhausted libraries were reflected. The article also talks about the measures implemented by the Great Leader in the second stage of his leadership to Azerbaijan in the direction of forming the normative legal framework that forms the basis of library construction in Independent Azerbaijan, the instruction on the development of the Law of the Republic of

Azerbaijan "On Library Work", and the historical Decree issued in connection with the implementation of that law.

The great leader Heydar Aliyev in the first years of restoration of Azerbaijan's independence laid the foundations of the new traditions in the field of library construction and the continuation of these traditions by the honorable President Ilham Aliyev, who is an active follower of his policy, is widely discussed. The attention and care of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, who successfully continued the course of the great leader Heydar Aliyev in the field of culture, is reflected in the National Library and the improvement of the conditions created there for readers.

**Key words:** Great Leader, National Library, private collection, Heydar Aliyev Corner, European National Libraries Conference organization, "Rare books" collection

**Адиба Исмайлова**

**Этап Гейдара Алиева в создании библиотеки в Азербайджане**

**Резюме**

В статье отражено отношение Общенационального Лидера Гейдара Алиева к культуре, книгам, библиотекам и чтению. Особо подчеркнуты неоднократное посещение Гейдаром Алиевым Национальной библиотеки Азербайджана имени М.Ф.Ахундова, его высказывания о библиотеке. Отмечено также, что Великий Лидер при визите в Национальную библиотеку, передал в дар ценную коллекцию книг из своей личной библиотеки. Великий Лидер еще на первом этапе своего правления, плодотворной деятельностью создал новый этап развития в истории национальной культуры, способствовавший развитию библиотечного дела в Азербайджане. Были предприняты важные шаги в направлении строительства библиотечных зданий в районах и городах, создании централизованных библиотечных систем, формировании сети полноценных библиотек. В статье также рассказывается о политике, осуществленной на втором этапе его правления, а именно – о мерах, осуществленных Общенациональным Лидером в направлении формирования нормативно-правовой базы, лежащей в основе библиотечного строительства в Независимом Азербайджане, об инструкции по разработке Закона Азербайджанской Республики «О библиотечной деятельности» и историческом Указе, изданным в связи с реализацией данного закона.

Широко обсуждаются новые традиции, заложенные Общенациональным Лидером Гейдаром Алиевым в первые годы восстановления независимости Азербайджана в области библиотечного строительства, а также успешное продолжение этих традиций достойным последователем его политического

курса – Президентом Ильхамом Алиевым. В статье также подчеркнуты внимание и забота Президента Азербайджанской Республики господина Ильхама Алиева, оказываемая Национальной библиотеке и улучшению созданных там условий для читателей.
**Ключевые слова:** Общенациональный Лидер, Национальная Библиотека, личная коллекция, Уголок, посвященный Общенациональному Лидеру, Организация конференции европейских национальных библиотек, коллекция "Редких книг"

**Redaksiyaya daxil olma tarixi: 03.05.2023**
**Çapa qəbul olunma tarixi: 15.05.2023**
**Rəyçi: prof. Kərim Tahirov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

# İÇİNDƏKİLƏR:

*HEYDƏR ƏLİYEV – 100*

**ƏDİBƏ İSMAYILOVA**
AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞUNUN
HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ ........................................................................3

**MƏMMƏDOVA ELNARƏ Adil q.**
HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ ................................................................15

*DİLÇİLİK*

**MƏMMƏDOVA ELNARƏ ADİL qızı**
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNSAN PSİXOLOGİYASINA VƏ DİLİMİZƏ TƏSİRİ ........................................................................22

**AFATSAFIKHANOVA**
**VALIDAABIYEVA**
**AYGUN ALCANOVA**
THE IMPORTANCE OF LEARNING ENGLISH LANGUAGE ..........................................29

**ARƏSTƏ XUDIYEVA**
İNGİLİS VƏ AZƏRBAYCAN DASTANLARINDA QƏHRƏMAN ADLARININ FOLKLOR SEMANTİKASI ........................................................................37

**LAILA SAHIB GADIMOVA**
TEXT AND SEMANTICS OF CONVERSION ......................................................49

**SAMİRƏ ADƏM QIZI ƏMRAHOVA**
NƏSİRƏDDİN TUSİ ANTROPONİMİ HAQQINDA ..............................................58

**RƏFİYEVA ELNARƏ RAUF QIZI**
DİL VƏ ONUN CƏMİYYƏTDƏ ROLU ..............................................................63

**AYTAKIN GULIYEVA**
THE SYNTACTIC DIFFERENCE BETWEEN SUBSTRUCTURE
AND SUPERSTRUCTURE AMBIGUITY IN ENGLISH ..........................................68

**ŞAHRUN SƏMƏDZADƏ**
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ LİNQVİSTİK MATERİALLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİ YOLLARI ........................................................ 80

**AFATSAFIKHANOVA**
**VALIDAABIYEVA**
**IRADA IBRAHIMOVA**
THE USE OF INOVATIONS IN FOREIGN LANGUAGES ANR THEIR AZERBAIJAN EQVIVALENTS ........................................................................................87

**AĞAYEVA NƏRGIZ**
MÜRƏKKƏB SÖZLƏR VƏ QOŞA SÖZLƏR ......................................................................95

**İLKNUR ƏSGƏROVA**
KLASSİK AZƏRBAYCAN POEZİYASINDA SAY SİMVOLİZMİ.....................................103

**SƏBINƏ ƏHMƏD QIZI MUXTAROVA**
Ə.ABDULLAYEV YARADICILIĞINDA ƏLİFBA MƏSƏLƏSİ .........................................111

**SAMİRƏ ADƏM QIZI ƏMRAHOVA**
NƏSIRƏDDIN TUSI ANTROPONIMI HAQQINDA ...........................................................123

**TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ**
BƏNZƏRSİZ DİL ABİDƏMİZ ...............................................................................128

**AYSEL HASANOVA NOVRUZ GIZI**
LANGUAGE ACCENT AND DIALECT IN NORTHERN IRELAND .................................134

**RƏHİMOVA GÜLNARA SAHİB QIZI**
SPEECH DIFFICULTIES AFTER A TRAUMATIC BRAIN INJURY ........................................................................................................143

**HƏMZƏYEVA TALIYƏ SALEH**
İNGİLİS DİLİNDƏN ALINMALARIN SEMANTİK MƏNİMSƏNİLMƏSİ.........................................................................................150

**İLAHƏ MƏMMƏDOVA**
DİL TƏDRİSİNDƏ SOSİOLİNQVİSTİKANIN VACİBLİYİ................................................157

**İBRAHİMOVA NİGAR FƏRMAN QIZI**
DIE VERANSTALTUNG DER INTENSIVIERUNGSSTUNDEN ...............165

**MƏHƏRRƏMOVA AYSEL HABIL QIZI**
XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ KURİKULUMUN MƏZMUN XƏTLƏRİNİN ROLU ..........................................................................172

**HÜSEYNOVA AYSU QƏNBƏR QIZI**
DİL UNİVERSALİLƏRİNİN NÖVLƏRI ..............................................................179

**MAHMUDAĞA SARIBALA OĞLU QASIMOV**
CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ SAİT SƏS ARTIMI.........................................................................................185

**NƏRMİN NATİQ QIZI ATAŞOVA**
**İNGİLİS DİLİNDƏ DANIŞIQ BACARIĞININ İNKİŞAFINDA**
DİGƏR DİL BACARIQLARININ ROLU....................................................................190

**RƏHİMOVA GÜLNARA SAHİB QIZI**
HOW ENGLISH BECAME THE GLOBAL LANGUAGE.....................................................196

**GÜNEL YUSİFLİ-MƏMMƏDBƏYLİ**
XARİCİ DİLİNİN TƏDRİSİ ZAMANI İSTİFADƏ OLUNAN FƏRQLİ METODLAR....204

**FEYZULLAYEVA GÜNEL**
İNTONASİYA VƏ ONUN ROLU ..............................................................................210

**YUSUBOVA GÜLNAR VIDADI QIZI**
FRAZEOLOGIYAYA DAR VƏ GENIŞ MƏNADA BAXIŞ ...................................................215

**ƏZİZƏ ZÜLFÜQAROVA**
İNGİLİS DİLİNİN TARİXİ VƏ ONUN DİGƏR DİLLƏRƏ TƏSİRİ ....................................222

**ABBASLI ELMİR ELŞƏN**
ƏCNƏBİLƏRİN YAPON DİLİ ÖYRƏNƏRKƏN QARŞILAŞDIQLARI
ƏSAS PROBLEMLƏR..........................................................................................227

**MAHNUR BAYANDUR Q.ŞIRINOVA**
THE PECULARITIES OF THE PREPOSITIONAL
PHRASEOLOJICAL UNITS....................................................................................234

**DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA**
NİTQ MƏDƏNİYYƏTİNİN İCTIMAİ ƏHƏMİYYƏTİ ........................................................243

**MƏRYƏM ƏSƏDOVA NAMİQ QIZI**
İTALYAN DİLİNDƏ KEÇMİŞ ZAMANIN LEKSİK ASPEKTİ...........................................249

***ƏDƏBİYYATŞÜNASLIQ***

**BİLAL HÜSEYNAĞA OĞLU HÜSEYNOV**
AZƏRBAYCAN FOLKLORUNDA DEYİMLƏRİN JANR XÜSUSİYYƏTLƏRİ...............257

**ABDULLAYEVA KÖNÜL TƏVƏKKÜL QIZI**
AZƏRBAYCAN ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR.......................................................276

**ÜLKƏR İMAN QIZI ƏLIYEVA**
ŞƏHƏR FOLKLOR MÜHİTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ: SALAMLAŞMA VƏ
SALAMATLAŞMA.................................................................................................283

**QULIYEVA GÜNEL RAMIZ QIZI**
**ŞAKİRLİ GÜNEL İSRAFIL QIZI**
SEYID ƏZIM ŞIRVANININ AZƏRBAYCAN MƏTBUATINDA ROLU .............................293

**RƏNA RZAYEVA**
«ƏDALƏT» ANLAYIŞI VƏ ONUN
ƏBUBƏKR İBN XOSROV ƏL-USTADIN «MUNİSNAMƏ»SİNDƏ YERİ ........................302

**ƏFƏNDIYEVA NAİRƏ PÜNHAN QIZI**
ALBERTO MORAVİANIN HEKAYƏLƏRİNİN
BƏDİİ XÜSUSİYYƏTLƏRİ ....................................................................................310

**GÜNAY SÜLEYMANOVA ŞAKIR**
DANİEL KİZ VƏ ONUN ELMİ FANTASTİK ƏSƏRLƏRİ HAQQINDA ...........................317

**TAHIRƏ FƏRMAN QIZI YUSIFOVA**
N. GƏNCƏVİNİN YARADICILIĞINDAN NÜMUNLƏRİN ÖYRƏDİLMƏSİ
PROSESİNDƏ ŞAGİRDLƏRDƏ MƏNƏVİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASI ....324

**VERDİYEVA ZÜLFİYYƏ VAHID QIZI**
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ SƏNƏTKARIN HƏYAT VƏ YARADICILIĞININ
ÖYRƏDİLMƏSİ YOLLARI....................................................................................334

**MAYA AĞAMIRZƏQIZI**
**(ABDULLAYEVA)**
RAMİZ RÖVŞƏN ŞEİRLƏRİNDƏ SÖZÜN MİSTİK OBRAZI...........................................342

**AYDAN RƏSULZADƏ**
TƏLƏBƏLƏRİN SƏVİYYƏLƏR ÜZRƏ QİYMƏTLƏNDİRMƏ
STANDARTLARI VƏ EFFEKTİV QİYMƏTLƏNDİRMƏ..................................................348

**ŞƏFİQƏ NƏCƏFOVA**
ŞEKSPİR “SONET”LƏRİNDƏ GÖZƏLLİK ANLAYIŞININ FUNKSİONAL
SƏVİYYƏLƏRİ.........................................................................................................358

**NƏRMİN ZEYNALOVA**
ƏDƏBİYYATIN TƏDRİSİ VƏ ÇAĞDAŞ İŞ ÜSULLARI ...................................................367

**HƏMİDOVA NƏRMİN**
MÜASİR DÖVR AVSTRALİYA NƏSRİ VƏ MARKUS ZUSAK
YARADICILIĞI ........................................................................................................373

**MUXTAROVA TƏBƏSSÜM DADAŞ QIZI**
İLQAR FƏHMİNİN “AKTRİSA” ƏSƏRİ VƏ RÖVŞƏN İSAXIN EYNİADLI FİLMİ ...........382

**HÜSEYN HÜSEYNLİ**
HÜSEYN CAVİDİN MƏNSUR DRAMLARINDA
LİRİK PARÇALAR ......................................................................................................400

**DÜRDANƏ DADAŞOVA TAŞDELEN**
SİNİF İNTİZAMINDA SƏLAHİYYƏT VƏ AVTOKRATİKA .............................................412

**ŞƏMILOVA DÜNYA MƏRDAN**
XAQANI ŞIRVANI YARADICILIĞINDA QURAN QISSƏLƏRI
İDEYA-BƏDII QAYNAQLARDAN BIRI KIMI ....................................................................420

**ZEYNALLI ŞƏBNƏM**
MIKAYIL MÜŞFIQIN "ŞƏNGÜLÜM, ŞÜNGÜLÜM, MƏNGÜLÜM"
NAĞILININ POETIK XÜSUSIYYƏTLƏRI ...........................................................................428

**FƏRİDƏ ÇİNGİZ**
HİND SƏBKİ ŞEİRİNDƏ FƏRHAD OBRAZI .......................................................................437

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 08.05.2023
Şərti çap vərəqi 27,5. Sifariş № 156
Kağız formatı 60x84 1/8. Tiraj 300

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4